# Dünya Azərbaycanlılarının milli birlik missiyası

(Əvvəli 2-ci səhifədə).

Ümummilli lider, dünya azərbaycanlılarının milli birliyi ilə bağlı demişdir: **«Müstəqil Azərbaycan Respublikası dünyada yaşayan bütün azərbaycanlılar üçün doğma vətəndir. Hansı ölkədə yaşamasından asılı olmayaraq, azərbaycanlı öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdır. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə qədim zəngin mədəniyyətə malik olan Azərbaycan kimi Vətəni vardır».**

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların arasında birliyin və həmrəyliyin təmin olunması ilə bağlı məsələlərin birgə müzakirəsi məqsədilə 2001-ci il noyabrın 9—10-da Bakıda tarixi bir toplantı—Dünya azərbaycanlılarının I qurultayı keçirilmişdir. Qurultay Azərbaycan diasporunun keçdiyi inkişaf mərhələlərini geniş təhlil etmiş, Azərbaycan icmalarının tarixi Vətənlə əlaqələrinin qurulması və möhkəmləndirilməsi, xaricdə yaşayan həmvətənlərimizin təşkilatlanması diaspor quruculuğu sahəsində qarşıda duran prioritet vəzifələri müəyyənləşdirmişdir. Ümummilli lider Heydər Əliyev I qurultaydakı dərin məzmunlu nitqində böyük həyəcanla söylədiyi «Fəxr edirəm ki, mən azərbaycanlıyam» sözləri sayı 50 milyonu ötmüş dünya azərbaycanlıları üçün milli gurur simvoluna çevrilmişdir.

Həmin tarixi qurultaydan sonra Azərbaycanda diaspor quruculuğu prosesi sürətlənmiş, 2002-ci ilin iyununda Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarala iş üzrə Dövlət Komitəsinin (hazırda Diasporlarla İş üzrə Dövlət Komitəsi adlanır) yaradılması bu sahədə dövlət siyasətinin sistemli və mütəşəkkil şəkildə həyata keçirilməsinə imkan verilmişdir. Çoxsaylı tədbirlər dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın xalqımızın milli maraqlarının təmin olunmasında yaxından iştirakına şərait yaratmışdır. Bundan başqa, 2002-ci ilin dekabrında «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanunun qəbulu diasporumuzun təşkilatlanmasına, dünya azərbaycanlılarının birliyinin yaranmasına geniş imkanlar açılmışdır.

Ulu öndərin milli birlik və azərbaycançılıq ideyaları bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev Azərbaycan diasporunun fəaliyyətini keyfiyyətcə yeni, daha yüksək səviyyəyə qaldırmaq üçün yeni-yeni addımlar artır. Bu məqsədlə onun imzaladığı sərəncamlara əsasən 2006-cı il fevralın 8-də Dünya azərbaycanlılarının II qurultayı, 2011-ci il iyunun 4-də Bakıda III qurultay keçirilmişdir.

Qurultaylarda Azərbaycan diasporunun vəziyyəti müzakirə edilmiş, ölkədə uğurla həyata keçirilən diaspor quruculuğu siyasətinin ardıcıl və sistemli xarakter daşıdığını nümayiş etdirdi. Ümumilikdə Dünya azərbaycanlılarının III qurultayında dünyanın 42 ölkəsindən 579 nümayəndə, o cümlədən 30 ölkədən 211 nəfər qonaq iştirak etdiyi ali tədbir azərbaycanlıların vahid və monolit qüvvə kimi təşkilatlanması prosesinin ölkənin xarici siyasətində prioritet istiqamətlərdən birinə çevrildiyini göstərdi.

Dünya azərbaycanlılarının III qurultayı bir daha göstərdi ki, Azərbaycanın inamla irəliləyərək iqtisadi artım tempinə görə dünyanın lider dövlətinə çevrilməsi, Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi daha da ruhlandırdı, onların müstəqil dövlətin xoşbəxt sabahına inamını artırdı.

Milli birlik və azərbaycançılıq ideyalarını layiqincə davam etdirən Prezident İlham Əliyevin hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində soydaşlarımıza ünvanladığı təbriklər ümummilli lider Heydər Əliyevin siyasi ideyalarına əsaslanan milli həmrəylik siyasətinin dövlət səviyyəsində də çox böyük uğurla həyata keçirildiyini nümayiş etdirir.

Qədirbilən xalqımız ulu öndərin adı ilə bağlı olan Dünya Azərbaycanlılarının Həmrəylik Gününü öz mədəniyyətinə, ənənəsinə, tarixi köklərinə xas olan ən xoş amal və duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət alır.

**Aslan CƏLİLOV.**

## *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2015-ci İLİN YANVAR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Bum qəsəbəsi | 06.01.2015 | Qəsəbə məktəbi, saat $15^{00}$ |
| Dizaxlı kəndi | 13.01.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Tikanlı kəndi | 21.01.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Mamaylı kəndi | 27.01.2015 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Qəbələdə bələdiyyə seçkiləri uğurla başa çatdı

Qəbələ rayonu üzrə növbəti bələdiyyə seçkilərində 29 bələdiyyə formalaşmışdır. Bu bələdiyyələrin 20-i 116 saylı Qəbələ dairə seçki komissiyasına, 9-u isə Oğuz—Qəbələ dairə seçki komissiyasına daxildir.



Dekabrın 23-də seçki məntəqələrində keçirilən bələdiyyə seçkilərinə ciddi hazırlıq görülmüş və səsvermə kampaniyasına vaxtında başlanılmışdır. 116 saylı Qəbələ seçki dairəsi üzrə səsvermə siyahısına 42.508 seçici daxil edilmişdir. Dairənin əhatə etdiyi 20 seçki məntəqəsində bələdiyyə şurasının üzvü seçilmək üçün 190 yer nəzərdə tutulmuşdur. Siyasi partiyalardan, təşəbbüs qruplarından və özü tərəfindən bələdiyyə üzvü seçilmək üçün seçki dairəsindən imza vərəqəsi alan 579 nəfərdən cəmi 5 nəfəri imza vərəqəsini müəyyən olunan vaxta qədər dairəyə təqdim etməmişdir. Lakin qalan 574 nəfər bələdiyyə şurası üzvlüyünə seçilmək üçün qeydiyyata alınmış, səsverməyə buraxılmışdır.

Dairə üzrə vaxtında səsvermə başa çatmış, 20 məntəqənin hamısında seçkilər baş tutmuş, ən çox səs toplayan namizədlər müvafiq bələdiyyələr üzrə şura üzvü seçilmişlər.

Ümumiyyətlə, 116 saylı Qəbələ seçki dairəsində seçicilərin fəallığı respublika səviyyəsindən daha yüksək olmuş və 40,9 faizə çatmışdır.

**Foto S. Umuyevindir.**

# Qəbələdə yeni meşəlik salınıb

Qəbələ rayonunda meşələrin mühafizəsi və bərpası diqqət mərkəzində saxlanılır. 2014-cü ildə rayonda, ümumillitkdə, 60 hektar sahəyə 65 min ting əkilib. Payız mövsümündə yeni meşəliklərin salınması işləri isə dekabrın 10-da başa çatdırılmışdır.

Bu mövsümdə plana uyğun olaraq rayonun Bum, Vəndam, Yenikənd və Zarağan meşəliklərinin ərazilərindəki dövlət meşə fondunun torpaqlarında 50 hektar sahədə meşəlik salınmışdır. O cümlədən 20 hektar ərazidə palıd qozalarının səpini aparılıb, 30 hektar əraziyə isə qoz, şabalıd, akassiya, vələs,göyrüş, ağcaqayın, palıd, fıstıq və digər qiymətli ağac növlərindən olan 35 min ting əkilib.

Rayon meşə mühafizəsi və bərpası müəssisənin kollektivi ötən ilin payızında daha 2 hektar sahədə yeni tinglik salıb. Hazırda burada 150 min ədəd ting yetişdirilir.

# 13 və 14 saylı Soltannuxa seçki məntəqələrində

13 və 14 saylı Soltannuxa seçki məntəqəlrində bələdiyyə seçkilərinə tələb olunan səviyyədə hazırlıq görülmüşdür. Hər iki məntəqə Soltannuxa kənd tam orta məktəbin binasında yerləşmişdir. Seçki məntəqələrinə təcrübəli komissiya sədrləri müvafiq olaraq Çingiz Əsədov və Fərrux Kərimov sədrlik etmişlər. Hər iki komissiya sədri səsvermənin mütəşəkkil və tam demokratik əsaslarla keçirilməsi üçün komissiya üzvlərini təlimatlandırmış və onların arasında vəzifə bölgüsü də aparılmışdır.

Məntəqələrdə səsvermə vaxtında başlamış, vaxtında başa çatmışdır. 13 saylı seçki məntəqəsi üzrə səsvermə siyahısına 751 nəfər seçici daxil edilmişdir. Bələdiyyə şurasına seciləcək 9 nəfər əvəzinə 28 nəfər qeydə alınmışdır. Onlardan 10 nəfəri siyasi partiyalar tərəfindən namizədliyi irəli sürülmüşdür.

Səsvermə üçün məntəqəyə gələn seçicilərin sayı 307 nəfər (40 faiz) olmuşdur. Onlardan ən çox səs toplayan 9 nəfər namizəd bələdiyyə üzvü seçilmişdir.

14 saylı səsvermə məntəqəsi üzrə də 9 nəfər şura üzvü əvəzinə 28 nəfər namizəd qeydə alınmışdır. Müşahidəçilərin sayı isə 10 nəfər olmuşdur.

Bu məntəqədə də səsvermə baş tutmuş, səsvermə siyahısına daxil edilmiş 963 seçicidən 371 nəfər (37 faiz) məntəqəyə gələrək, azad surətdə və heç bir təzyiq olmadan istədikləri və yaxından tanıdıqları namizədlərə səs vermişdir.

**Nadir ATAKİŞİYEV.**